

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 avqust 2024-cü il №65 (2876) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Avqustun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan Sabir Zeynalovu təbrik edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan parataekvondoçusu Sabir Zeynalovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Parataekvondoçu Sabir Zeynalov "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycana ilk medalı qazandırdı! Bürünc mükafatçını səmimi-qəlbdən təbrik edir, milli yığmamızın bütün üzvlərinə güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!"

*Reportaj*

## Ruhumuzun məskənidir bu dağlar



Qızmar yay günlərindən birində yolumuz dağlarda Vətənin müdafiəsində dayanan oğullarımızın yanınadır. Rahat yolumuz enişli-yoxuşlu yolla əvəzlənir, lakin təcrübəli sürücünün məharəti və bacarığı sayəsində çətin relyefləri də rahatlıqla aşırıq. Yol boyu ətraf mühitin, ana təbiətin əsrarəngiz gözəlliyi yolun uzunluğunu və çətinliyini bizə hiss etdirmir. Dağa qalxdıqca havanın istiliyi öz yerini sərin mehə verir. Havadakı sərinlik qəlbimizə də sərinlik gətirir. Əsgərlərimizin xidmət etdiyi müqəddəs ünvana çatırıq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mehman İsmayılovla görüşürük. Post başçısı özü ilə bağlı qısa məlumat verir və ucqar yüksəkliklərdə cəsur əsgərlərlə birgə Vətənin keşiyində durmağın verdiyi qürurdan danışır. "1990-cı ildə Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşam. İlkin təhsilimi də məhz burada almışam. Uşaqlıqdan Vətənə bağlılığı ailəmdən öyrənməyə başlamışam. Vətənimin havasını ruhumun qidası bilmişəm. Bu gün bu yüksəkliklərdə ata-babalarımızın ayaq izi olan tarixi ərazilərimizdə xidmət etmək hər birimiz üçün fəxrdir. Xalqımızın dəstəyini hiss edir və soydaşlarımızın əmin-amanlığını təmin etmək üçün məsuliyyətli xidmət aparırıq. Bütün dünya ordumuzun gücünü, Azərbaycan əsgərinin hünər və şücaətini yaxşı bilir. Bir sözlə, xalq ordusuna güvənir, arxayın doğma ocağında yaşayır, yaradır. Mövzu Vətəndirsə, əsgərlərimiz üçün relyefin çətinliyi, iqlimin əlverişsizliyi və vaxt-vədənin fərqinin önəmi yoxdur. Xalqımızın əmniyyətini, torpaqlarımızın bütövlüyünü qorumaq üçün Vətən müdafiəçilərimiz xidmətini məsuliyyətlə təşkil edirlər. Bölməmizin əsgərləri yüksək hərbi intizama və döyüş ruhuna sahibdirlər. Onlar üçün ən vacib Vətən məfhumudur, üzərində gəzdiyi torpağın müqəddəsliyidir. Vətəni mətinliklə qorumaq, xalqa sədaqətlə xidmət etmək ürəyi Vətən sevgisi ilə dolu olan hər bir əsgərin müqəddəs amalıdır", - deyə çavuş M.İsmayılov bildirir.

Əsgər Namiq Əzimovla söhbətimiz zamanı işlətdiyi bir fikir qəlbimi riqqətə gətirir. "Vətəni qorumaq bu gün bizlərə həvalə olunub. Bundan müqəddəs vəzifə yoxdur. Vətən bütövlüyünü qorumaq, xalqın sülh şəraitində yaşamasını təmin etməkdən ali nə xidmət ola bilər?! Fərqli evlərdən xidmətə gəlsək də, burada bizim məqsədimiz birdir, Vətəndir. Burada təkcə özünü və ailəni deyil, bütün Vətəni qoruyursan. Bizi bir-birimizə bağlayan da Vətəndir və hamımız bir amal üçün çalışır, Vətənimizi qətiyyətlə müdafiə edirik".

"Vətəninə və xalqına sadiq olan əsgər olaraq demək istəyirəm ki, əcdadlarımızdan bizə miras qalan torpaqlarımız bu gün inamla qorunur", - deyən əsgər Yalçın Qələndərov söhbətə davam edir. "Çünki bizə etibar olunmuş bu torpaqların hər qarışı uğrunda ata-babalarımız qan töküblər, can veriblər. Bizim də üzərimizə düşən əsas vəzifə etibar olunan müqəddəs missiyanın öhdəsindən ləyaqətlə və layiqincə gəlməkdir. Üzərimizə düşən məsuliyyətin fərqindəyik, xidmətimizi böyük ruh yüksəkliyi ilə təşkil edirik".

(Ardı 3-cü səhifədə)

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Avqustun 28-i saat 06:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

* * *

Avqustun 28-i saat 18:30-da Ermənistan silahlı qüvvələrinin bölmələri Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şada yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

Qeyd olunan istiqamətdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.



"Vətən müdafiəçiləri ilə görüşüb səmimi söhbət etməkdən fərəhlənirik"

3-cü səhifədə



Bilik və təcrübə döyüş hazırlığı deməkdir

4-cü səhifədə




İstiqlal savaşı - Türk Ordusunun Zəfər salnaməsi

5-ci səhifədə



"Mənim kameram mənim dünyaya səsimdir"

7-ci səhifədə

# Türkiyə Prezidenti Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüşüb





Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 30-da Ankarada Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş Milli Müdafiə Universitetinin Hərbi Akademiyasında diplomların təqdim edilməsi mərasimindən sonra baş tutub.

Türkiyənin dövlət başçısı 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlara Allahdan rəhmət diləyib. Şəhid ailəsi üzvlərinin bir-bir əlini sıxan Ərdoğan, "Bütün şəhidlərimizin məkanı cənnət olsun" deyib.

Türkiyə lideri şəhid ailəsi üzvlərini Prezident Kompleksinin ərazisində Zəfər bayramı münasibətilə baş tutan konsert proqramına dəvət edib.

Rəcəb Tayyib Ərdoğan daha sonra Azərbaycandan gələn heyət üzvləri ilə birgə şəkil çəkdirib.

Qeyd edək ki, Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət 30 nəfərlik qrup "YAŞAT" Fondu ilə "Türkiyə və Azərbaycan Sahibkar və Sənayeçiləri" İctimai Birliyinin (TÜİB) birgə həyata keçirdiyi "Qardaş ailə" proqramı çərçivəsində Ankarada səfərdədir.

## Azərbaycanın müdafiə naziri Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə türkiyəli həmkarını təbrik edib

Avqustun 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler arasında telefon danışığı olub.

Müdafiə Nazirliyi xəbər verir ki, general-polkovnik Zakir Həsənov qardaş ölkənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə türkiyəli həmkarını təbrik edib.

Telefon danışığı zamanı, həmçinin ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilib.

# Bakıda Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd edilib

*Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, altıncı çağırış Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İstiqlal Marşı səsləndikdən sonra Türkiyənin ölkəmizdəki səfiri Cahid Bağçı Prezident Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi Zəfər qazandığını qeyd edərək ölkəsinin 102 il bundan əvvəl başlatdığı mübarizənin Zəfərlə başa çatdığını vurğulayıb.

Türkiyənin son illər inkişaf edərək dünyada böyük güc mərkəzinə və söz sahibinə çevrildiyini vurğulayan diplomat ölkəsinin mühüm beynəlxalq məsələlərin həllində fəal iştirak etdiyindən danışıb. Cahit Bağçı Türkiyənin getdikcə gücləndiyini, müdafiə sənayesi sahəsində inkişafının 80 faizə çatdığını və dünyada böyük söz sahibinə çevrildiyini diqqətə çatdırıb.

"Əsrlər boyu qlobal güc mübarizələrinə şahidlik edən bir coğrafiyanın mərkəzində yerləşən Türkiyə Cümhuriyyəti "Güclü Türkiyə, Güclü Ordu" şüarı ilə Türk Silahlı Qüvvələrini gücləndirmək üçün səy göstərib. Bu gün Türkiyə NATO-nun 2-ci ən böyük hərbi qüvvəsinə malik ölkəyə çevrilib", - deyə diplomat qeyd edib.

Vurğulayıb ki, "Türk əsri"nin də "Türk dünyasının əsri" olacağı inancı ilə işlər davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin "Ailəmiz türk dünyasıdır" ifadələri son dərəcə əhəmiyyətli, mənalıdır və bizim bu sahədə ortaq perspektivə malik olduğumuzu göstərir.

Səfir qeyd edib ki, dünyanın müxtəlif yerlərində müharibələrin, mühüm sınaqların yaşandığı bir dövrdə qardaş Azərbaycanla müttəfiqliyimiz, qardaşlığımız daha mühüm xarakter alıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş türk xalqını və Türkiyə Silahlı Qüvvələrinin bütün şəxsi heyətini Azərbaycan Prezidenti adından Zəfər bayramı münasibətilə təbrik edərək, bu möhtəşəm qələbənin Türkiyənin şanlı tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildirib.



Azərbaycanla Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu vurğulayan general-polkovnik Zakir Həsənov əlaqələrin bu səviyyəyə çatmasında hər iki dövlət rəhbərinin rolunu qeyd edib.



"1922-ci il avqustun 30-da böyük sərkərdə, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün komandanlığı altında Türkiyə Ordusu Qurtuluş Savaşının taleyini və Türkiyənin gələcək müqəddəratını həll edəcək Zəfər qazandı. Bu Zəfər Türkiyənin zəngin tarixinin ən şərəfli səhifələrindən biridir", - deyə o qeyd edib.



Ölkələrimiz arasındakı əlaqələrin, hərbi sahədə əməkdaşlığımızın inkişafı üçün yeni imkanlardan danışan general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə münasibətlərinin Şuşa Bəyannaməsi ilə daha da yüksək-müttəfiqlik səviyyəsinə çatdığını vurğulayıb: "Bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər ən yüksək səviyyədədir. Azərbaycan-Türkiyə münasibətləri Ümummilli Liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fəlsəfəsi ilə bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də uğurla inkişaf edir.

Əzəli torpağımız Qarabağ uğrunda başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı Türkiyənin haqq işimizə dəstəyini hiss etdi. Həmin dövrdə Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək iki ölkə arasındakı birlik və həmrəyliyin bariz nümunəsidir. Ölkələrimiz arasındakı tarixi, dini, siyasi və iqtisadi əlaqələr hərbi sahədə əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar yaradıb.

Hazırda Azərbaycan-Türkiyə əlaqələri Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykənir və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər həyata keçirilir".

Müdafiə naziri vurğulayıb ki, iki ölkənin orduları arasında qarşılıqlı etibar və qardaşlığa əsaslanan əməkdaşlıq birliyimizi möhkəmləndirir, bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasına və xalqlarımızın rifahının daha da yüksəlməsinə xidmət edir.



Azərbaycan Respublikasının Prezidentinin tapşırığına əsasən hazırda Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılır.

Onun sözlərinə görə, həyata keçirilən uğurlu hərbi islahatlar tətbiq olunan yeni texnologiyalar, habelə silahlanmaya daxil edilmiş müxtəlif təyinatlı hərbi vasitələr Ordumuzun əməliyyat imkanlarını xeyli artırıb və döyüş qabiliyyətini yüksək səviyyəyə çatdırıb.

Bu il ərzində müxtəlif qoşun növlərinin cəlb olunması ilə "Qafqaz Qartalı", "Efes", "Kurtaran", "Anadolu Ankası" və digər təlimlər keçirilib. Bundan sonra da birgə təlim və məşqlərin sayının artırılması planlaşdırılır.

Qardaş Türkiyə xalqını və Silahlı Qüvvələrinin şəxsi heyətini Zəfər Bayramı münasibətilə ürəkdən təbrik edən nazir deyib: "Dövlətçilik və azadlıq uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla anır, Azərbaycan və Türkiyəyə yeni qələbələr və uğurlar arzulayıram".

Sonda Zəfər Bayramı münasibətilə film nümayiş olunub.

# "Vətən müdafiəçiləri ilə görüşüb səmimi söhbət etməkdən fərəhlənirik"

Bu gün hər birimiz rəşadətli və qalib ordumuzla fəxr edirik. Azərbaycan xalqı 30 ilə yaxın müddətdən sonra torpaqlarımızı azad edən, ona Böyük Qələbə sevinci yaşadan ordusu ilə hər zaman qürur duyur. Ordu mənsubları Vətəni qorumaq kimi şərəfli vəzifələri yerinə yetirirlər. Bu vəzifənin müqəddəsliyini dərk edən hər kəs daim ordusuna inanıb, güvənib. Ordu xalqın, xalq ordunun dayağı olub. 44 günlük Vətən müharibəsindən əvvəl də, sonra da xalqımızın dəstəyi hər zaman ordumuzun yanında olub. Bir sözlə, Azərbaycanda dövlət-xalq-ordu birliyi sarsılmazdır.

Bu sarsılmazlığın göstəricisi kimi müxtəlif dövlət qurumlarının, özəl təşkilatların əməkdaşları, millət vəkilləri, orta və ali təhsil ocaqlarının nümayəndələri tez-tez hərbi hissələrə səfər edir, əsgərlər ilə bir arada olurlar. Bu görüşlər xalqın daim əsgərinin yanında olduğunu, ona sonsuz güvəndiyini nümayiş etdirir. Həmçinin əsgərlərimiz də bu qayğıdan, onlarla görüşə gələn insanlardan eşitdikləri xoş sözlərdən, ordumuza bəslənən güvəncdən ilham alaraq, daha yüksək əhval-ruhiyyədə xidmət aparırlar.

Ordumuza mənəvi dəstəyini heç zaman əsirgəməyən təşkilatlardan biri də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsidir (BHİK). Komitə üzvləri hər il dəfələrlə xeyirxah təşəbbüslər irəli sürərək, ordumuzun şəxsi heyətinə mənəvi dəstəyini əsirgəmirlər. Onlar tez-tez hərbi hissələrimizə baş çəkir, şəxsi heyətlə görüşlər keçirir, Vətən müdafiəçilərinə müxtəlif hədiyyələr və bayram sovqatları aparırlar.



Növbəti belə görüş Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayevin rəhbərliyi ilə komitənin bir qrup üzvü Müdafiə Nazirliyinin hərbi hissələrində oldu. Səfər çərçivəsində komitə üzvləri hərbi hospitalda və "N" hərbi hissəsində oldular. Həmin yerlərdə çalışan mülki işçilərlə görüşüb, onların sosial-məişət şəraitləri ilə yaxından tanış oldular. Hospitalın müayinə, əməliyyat və digər tibb otaqlarını gəzərək buranın müasir tibbi avadanlıqlarla təchiz olunduğunu gördülər. Həmçinin hərbi hissələrdə yeməkxana, istirahət və digər məişət otaqlarının da yüksək təminatının şahidi oldular. "N" hərbi hissəsində şəxsi heyətlə görüşüb səmimi söhbət edən komitə üzvləri məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə hərbi hissəyə 2 ədəd yüksək gərginlikli elektrik generatoru hədiyyə etdilər. Həmçinin xidmətdə fərqlənənlərə hədiyyələr də təqdim etdilər.

Şəxsi heyət qarşısında çıxış edən BHİK-in sədri K.Rzayev dedi ki, müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü rəşadətli Azərbaycan Ordusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şah əsərlərindən biridir. "Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Böyük Qələbə təkcə Azərbaycan tarixində deyil, dünya hərb elminin tarixində də mühüm izlər qoydu. Sizin cəsarətiniz, mərdliyiniz, döyüş meydanında göstərdiyiniz igidliklər xalqımıza tarixi zəfər sevincini yaşatdı. Siz şanslı gənclərsiniz ki, qalib ordunun əsgərlərisiniz. Hərbi qulluqçularla görüşmək bizim üçün həm sevincli, həm də qürurludur. Elimizin igidləri, Vətənimizin müdafiəçiləri ilə səmimi söhbət etməkdən fərəhlənirik. Ordumuzun gücünün, qüdrətinin, əsgərlərimizin yüksək döyüş ruhunun şahidi olmaq hər birimizi çox sevindirir. Dövlətimizlə, ordumuzla, əsgərimizlə daima fəxr edirik. Azərbaycan xalqı sizə sonsuz güvənir. Əmindir ki, ərazi bütövlüyümüzün keşiyində inamla dayanırsınız. Çətin və şərəfli vəzifələrinizdə hər birinizə uğurlar arzulayıram", - deyə komitə sədri bildirdi.

Görüşlərdə hərbi qulluqçular da çıxış edərək BHİK-in sədrinə və kollektivinə təşəkkürlərini çatdırdılar. "Xalqımızın güvəncindən, bizə olan sevgisindən və rəğbətindən hər birimiz ruhlanırıq. Şərəfli peşəmizlə bir daha qürur duyuruq. Sizə və sizin timsalınızda xalqımızın hər bir nümayəndəsinə minnətdarıq. Belə görüşlər bir daha sübut edir ki, xalq-ordu birliyimiz möhkəmdir və qırılmazdır. Mütəmadi olaraq bizə göstərdiyiniz mənəvi dəstəyə görə, sizə və kollektivinizə minnətdarlığımızı bildiririk".

Həmçinin səfər çərçivəsində hərbi hissələrdə çalışan mülki işçilərlə ilk dəfə BHİK-in təsis yığıncağı keçirildi. Tədbirdə komitənin fəaliyyəti haqqında üzvlərə ətraflı məlumat verildi, onları maraqlandıran suallar cavablandırıldı. Daha sonra yığıncaqda səsvermə keçirilərək hərbi hissələr üzrə sədr və müavinlər seçildi.

**"Azərbaycan Ordusu"**

# Ruhumuzun məskənidir bu dağlar





(Əvvəli 1-ci səhifədə)

Döyüş növbətçiliyi aparan əsgər Əlibala Əliyev vətənpərvərliyin Vətənə sevginin, xalqa, dövlətə bağlılığın birləşməli olduğunu qeyd edərək söhbətə başlayır. "Həmçinin vətənpərvərlik Vətənin müdafiəsini etibarlı, inamlı və qətiyyətli təşkil etməkdir. Bu ülvi hisslər bizə babalarımızdan qalan mirasdır. Onlar üzərində böyüyüb boya-başa çatdığımız torpaqların hər qarışı uğrunda canlarını sipər ediblər. Biz də öz növbəmizdə sələflərimizin yolunu uğurla davam etdirməli, bunun üçün də döyüş hazırlığımızı, döyüş ruhumuzu daim artırmalı, komandirlərimizin tövsiyələrini dinləməliyik, tapşırıqlarını layiqincə icra etməliyik", - əsgər Ə.Əliyev deyir.

Müşahidədə dayanan əsgər Rəsul Mövsümzadə xalq-ordu birliyi sayəsində dövlətin qüdrətinin artmasını xüsusi qeyd edərək deyir: "Zirvələr hər zaman bayrağımızın dalğalandığı yer olacaq. Torpağımızın hər qarışı mənə əzizdir, çünki Vətənimə bağlıyam. Vətənimlə bağlı olan hər şey mənim üçün əzizdir. Qalib ordunun hərbi mundirini daşıdığım üçün qürurluyam. Qalib ordu mundiri ilə Vətəni layiqincə qorumaq həm vətəndaşlıq, həm də övladlıq borcumuzdur".

Əsgər Tapdıq Muradov xalqın öz qəhrəmanları ilə tanındığını qeyd edir. "Azərbaycan xalqının qəhrəman oğulları tarix boyu olub, bundan sonra da olacaq. İgidlərimiz olduğu müddətdə də Vətən bütövlüyümüz layiqincə qorunacaq. Bunun müqəddəs andını biz içmişik. Söz vermişəm ki, Vətənimə layiqli əsgər olacam, bunun üçün əlimdən gələni etməyə daim hazıram. Qəlbimizdə Vətən sevgisi olduğu müddətcə heç kim bu sevgini nursuz qoya bilməz. Çünki vətənpərvərliyin nuru məhz Vətən sevgisi, xalq sevgisidir".

Hərbi xidmətə Bakı şəhərindən çağırılan əsgər Nizami Eyyubzadə döyüş növbətçiliyindən qayıdır, onun da fikirlərini qələmə alıram. "2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatı zamanı qalib ordumuz yeni hərbi tarix yazdı və yazılan tarixlə xalqımıza misilsiz zəfəri yaşatmış oldu. Bu gün hər birimiz istər döyüş ruhu, istərsə də Vətənə və xalqa sədaqətlə xidmətimizi təşkil edir, bizə olan etimadı layiqincə doğrultmaq üçün xidmətimizə məsuliyyətlə yanaşırıq", - Nizami Eyyubzadə bildirir.

Bu gün əsgərəm, əsgər olmaq, əsgər adını daşımaq şərəflərin ən alisidir. Doğulub böyüdüyümüz Vətən torpağı bizə əzizdir. Əbəs yerə Ana Vətən deyilmir. Ona da canınla və qanınla bağlı olursan. Təcrübəli komandirlərimizlə birlikdə xidmət etmək qürurvericidir. Komandirlərimə və əsgər yoldaşlarıma minnətdaram ki, döyüşçü olaraq formalaşmağım məhz onların dəstəyi sayəsində mümkün olub. Orduda keçən günlərim ömrümün ən yaddaqalan dövrüdür. Burada yaxşı dostlar qazanmışam, həyat təcrübəsi keçmişəm. Hərbi xidmət mənə polad iradə, cəsurluq və digər güclü xarakterlər qazandırıb.



Son müsahibim Əlibala Məmmədovdur. "Vətən sevgisi və döyüş qabiliyyəti yüksək olan əsgər məğlubedilməzdir, hər zaman qalibdir. Hərbi xidmətdə keçən günlərin önəmi bizim üçün böyükdür. Xidmətə çağırıldığım ilk gündən qarşıma məqsəd qoymuşam: Yüksək hərbi intizama malik əsgər olacaq, komandirlərimin tapşırıqlarını cəld və dəqiq yerinə yetirəcək, içdiyim anda həmişə sadiq qalacaq, Vətən torpağını göz bəbəyim kimi qoruyacağam. Məqsədlərimə çatmağımda komandir və əsgər yoldaşlarımın böyük əməyi var. Onların hər birinə minnətdaram".

Dağlarda xidmət edən dağ vüqarlı oğullarımızla həmsöhbət olmağımız qəlbimizdə xoş ovqat yaradır. Vətən qarşısında övladlıq və vətəndaşlıq borcunu ödəməyin məsuliyyətini dərk edən gənclərimizin ürəyi hər zaman olduğu kimi, bu gün də Vətən eşqi ilə döyünür. Bu da bizi bir daha əmin edir ki, zirvələrimiz etibarlı əllərdədir. Vətəni müdafiə edən oğullarımızın hər birinə xidmətlərində uğurlar arzulayaraq sağollaşırıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Bilik və təcrübə döyüş hazırlığı deməkdir

*Ordu quruculuğu prosesi ordunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi, ordunun möhkəmləndirilməsi baxımından Vətənin müdafiə qüdrətinin yüksəldilməsini, silahlanmanı və s. əhatələyir. İstər bu qoşun növündə, istərsə də bu və ya digər hərbi hissələrdə keçirilən müxtəlif miqyaslı təlimlər bu prosesin tərkib hissələrindəndir. Şəxsi heyətin döyüş hazırlığı müdafiə nazirinin təsdiq etdiyi plana əsasən digər məzmunlu təlimlər kimi döyüş atışlı taktiki təlimlərlə də möhkəmləndirilir.*





"N" hərbi hissəsində döyüş atışlı taktiki təlim keçirildi. Mayor Elman Əsgərov bildirdi ki, təlimdə iştirak edən bölmələrin şəxsi heyəti nəzəri bilikləri təcrübə ilə - təlimlərlə möhkəmləndirirlər ki, bu da mahiyyət baxımından döyüş hazırlığının yüksəldilməsi deməkdir.

İkinci Qarabağ müharibəsində digər qoşun növləri kimi, artilleriyaçıların da döyüşləri mövqe qələbələrinə görə Böyük Qələbənin qazanılmasında əhəmiyyətli oldu.

Mayor Elman Əsgərov bildirdi ki, 2016-cı ilin Aprel döyüşlərində də iştirak edib, Vətən müharibəsində də, sonrakı döyüş əməliyyatlarında da. Hər döyüş həm tarixdə yaşadılır, həm də xatirələrdə. Bu döyüşlər haqqında təəssüratlar bölmənin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində tarixi dəyərə malik olur. Torpaqlarımızın işğaldan necə azad olunduğunu öyrənən hərbi qulluqçular torpaqlarımızı məsuliyyətlə, dövlətə, dövlətçiliyə sədaqətlə qoruyurlar. Zabitlərdən Ramil Şərifov, Süleyman Ağayev, Emin Eminov, Zaur Quliyev və başqaları döyüş və mənəvi-psixoloji hazırlığın həmişə yüksək səviyyədə saxlanılması üçün müvafiq təlimatlardan, sənədlərdən sərfəli istifadə edirlər.

Top komandiri Sabir Quliyev hərbi xidmətə Bakı şəhərindən çağırılıb. Gənc əsgər hazırlıq kursunda artilleriyaçı ixtisasını öyrənib. Çöl təlimlərində öyrənməklə biliklərini təkmilləşdirib. Qoşunlarda xidmətə peşəkar artilleriyaçı kimi gəlib. İndi hərbi hissənin nümunəvi əsgərlərindəndir. Bacarığını, səriştəsini, əsgərlər arasında nüfuzunu nəzərə alıb onu top komandiri təyin ediblər. "Topun istismarına, sazlığına da, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığına da, qarşılıqlı münasibətlərin səmimiliyinə də məsuliyyətlə yanaşıram. Belə öyrədiblər, belə öyrənmişəm. Ona görə də heyətimiz bölmənin nümunəvi heyətlərindəndir. Döyüş atışlı taktiki təlimlərdə də məsuliyyətlə iştirak edirik. Səriştəmizi bu təlimdə də artırdıq. Vətənin müdafiəsində dayanmağın qürurunu biz də böyük duyğusallıqla yaşayırıq. Ali Baş Komandanın istənilən döyüş əmrini yerinə yetirməyə hazırıq...", - əsgər Sabir Quliyevin dediklərini mənəvi-psixoloji hazırlığın döyüş hazırlığının timsalında mənəvi zənginliyin səviyyəsi bilirik.

Zabit Ramil Şərifov mayor Elman Əsgərovun fikrinə qüvvət kimi deyir ki, Vətən müharibəsi xalqın müharibəsi idi. Bu müharibədə ordumuz Ali Baş Komandanın sərkərdəliyi ilə qətiyyətlə, mərdliklə döyüşdü, düşmənin ciddi müqavimətini qırdı, tarixi Zəfər qazandı. Bu möhtəşəm qələbənin qazanılmasında artilleriyaçılar da qətiyyətlə döyüşdülər, düşmənin komanda və dayaq məntəqələrini dağıtdılar, döyüş texnikalarını sıradan çıxartdılar, döyüşənlərimizə vaxtında və gərəkli artilleriya dəstəyi verdilər. Biz əsgərlərimizə bu haqda danışırıq. İnanırıq ki, kifayət qədər nəzəri biliyə və təcrübi vərdişlərə malik olan top heyətimiz yüksək döyüş hazırlığına malikdir, yüksək mənəvi-psixoloji hazırlığı ilə Vətəni sədaqətlə qoruyurlar...



Zabitin dediklərini top heyətinin məsuliyyətli xidməti bilirik...

Top heyəti qoşunlarda xidmətə nizamnamələrin tələblərinə əməl etməklə müəyyən hərbi bilikləri mənimsəmiş gənc əsgər kimi gəlib. Hərbi xidmətdə artilleriyaya aid ələvə bilikləri, təcrübəni, peşəkarlığı komandirlərindən, təcrübəli əsgərlərindən öyrəniblər. Baş tuşlayıcı Tural Əlizadə hərbi xidmətə Lerik rayonundan çağırılıb. O da ilkin hazırlıqdan sonra Hərbi And içib, xidmətə göndərilib. "İlk təlimlərdə zabitin dediyi "Siz şərti düşmənin görünməyən hədəflərini sıradan çıxaracaqsınız...", kəlmələri mənim bu hərbi ixtisasa marağımı daha da artırdı. İndi qürurlanıram ki, artilleriyaçıyam. Onlar da qürurlanacaq, Vətəni onlar da qürurla qoruyacaqlar...", - deyir. Təkcə öz adından deyil, top heyətinin adından deyir; döyüş atışlı taktiki təlimdə bu bölmə, bu top heyəti də fərqlənib.

Top heyətinin üzvləri - Riyad Rəhimli, Murad Əhmədli və Tərlan Abbasov bu fikirləri bundan sonrakı hərbi xidmətlərinə zəmanət bilirlər. Əsgər Oruc Musayev dedi ki, biz əvvəlki təlimlərdə olduğu kimi, bu təlimə də ciddi hazırlaşmışdıq. Sevinirik ki, təlimin nəticələrinə görə heyətimizə təşəkkür elan edildi. Bundan sonrakı təlimlərdə də daha yaxşı iştirak edəcək, bölməmizin xidməti uğurlar qazanmasına çalışacağıq...

Döyüş atışlı taktiki təlim təsdiqlədi ki, batareyalar təlimlərə məsuliyyətlə hazırlaşırlar. Bu təlim gələcək uğurlu təlimlər üçün istinad olacaq...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## HDQ-nin dəniz piyada bölmələrinin şəxsi heyəti ilə təlim keçirilir





*2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) dəniz piyada bölmələrinin şəxsi heyəti ilə dağçılıq təlimi keçirilir.*

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ssenarisinə uyğun olaraq, çətin relyefli şəraitdə qrupların hərəkəti sərt qayalıqlardan eniş, çayların və göllərin keçilməsi, həmçinin əlverişsiz relyefdə yaralıların təxliyəsi üzrə epizodlar icra olunur.

Qeyd edək ki, təlimin keçirilməsində əsas məqsəd şəxsi heyətin döyüş hazırlığını müasir tələblərə uyğunlaşdırmaq, dövrün tələblərinə uyğun döyüşaparma və özünümüdafiə bacarıqlarının nəzəri və praktiki əsaslarını mənimsəməkdir.

## Mühəndis bölmələrində toplanışlar keçirilir



2024-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələrində sürücü-mexanik və sürücü heyətləri ilə toplanışlar keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanışlar zamanı hərbi qulluqçular qarşıya qoyulan tapşırıqların icrasında peşəkarlıq nümayiş etdirirlər.

Plana əsasən, keçirilən toplanışlarda əsas diqqət şəxsi heyətin döyüş hazırlığının təkmilləşdirilməsinə, bilik və bacarıqların artırılmasına, eləcə də praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

# Türkiyənin milli müdafiə naziri: Türkiyə Azərbaycanın yanında olub və olacaq

Türkiyənin milli müdafiə naziri Yaşar Güler "Yaşat" Fondu və "Şahibkarlar və Türkiyə və Azərbaycan Sənayeçiləri" (TÜİB)" İctimai Birliyinin birgə həyata keçirdiyi "Qardaş ailə" proqramı çərçivəsində Ankaraya gəlmiş Qarabağ müharibəsi şəhidlərinin bir qrup qohum və yaxınlarını qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürak da iştirak edib.

Türkiyəli nazir vətənlərinin ərazi bütövlüyü və təhlükəsizliyi uğrunda mübarizədə qəhrəmancasına canlarından keçmiş Azərbaycan övladlarının xatirəsini ehtiramla yad edib. "Azərbaycan oğulları torpaqlarını geri qaytarmaqla əsl vətənpərvərlik nümayiş etdirdilər. Bu qəhrəmanlar türklərə yaraşan hərəkət ediblər. 44 günlük müharibədə Azərbaycanın şanlı ordusunun əldə etdiyi böyük qələbə Azərbaycan xalqının onilliklər boyu üzləşdiyi ədalətsizliyə son qoydu. Bu qələbə həm də işğal dövründəki qanunsuzluqlara göz yumanların hamısına cavab oldu", - deyə Y.Güler bildirib.



Türkiyə Müdafiə Nazirliyinin rəhbəri vurğulayıb ki, türk xalqının iradəsini qırmağa heç kimin gücü çatmaz.

"Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirərək bütün dünyaya göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin təmin olunmasında əvəzsiz amildir. Azərbaycanın gücü Türkiyənin qüdrəti, Türkiyənin gücü isə Azərbaycanın qüdrətidir", - deyə türkiyəli nazir vurğulayıb.

Türkiyə Müdafiə Nazirliyinin rəhbəri Qarabağ müharibəsində şəhid olanlar arasında Türkiyənin hərbi təhsil müəssisələrinin azərbaycanlı məzunlarının da olduğuna diqqət çəkib. "Bu, qardaşlığımızın daha bir göstəricisidir. Biz Azərbaycanın yanında olmuşuq və olacağıq", - deyə Y.Güler əmin edib.

Sentyabrın 2-dək davam edəcək səfər çərçivəsində 4-cü Ordu komandanlığının qərargahında, Prezident Administrasiyasında, eləcə də Türkiyənin Gənclər və İdman Nazirliyində də şəhid ailələri ilə görüşlər planlaşdırılıb.

Səfər proqramına Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün məqbərəsi və ev-muzeyinə ziyarətlər daxildir. Bundan əlavə, şəhid ailələri Türkiyə paytaxtının Cebeci bölgəsində şəhid olan türk əsgərlərinin məzarlığını ziyarət edəcəklər. Hacı Bayram Vəli məscidində Azərbaycan və Türkiyə qəhrəmanlarının xatirəsinə dualar oxunacaq.

Türkiyədə qazi və şəhid ailələrinin ictimai birliklərinin nümayəndələri ilə də danışıqların aparılması planlaşdırılıb.

# İstiqlal savaşı - Türk Ordusunun Zəfər salnaməsi

Dünya hərb tarixində elə hadisələr var ki, illər keçdikcə, əsrlər ötdükcə bütün dövrlərdə öz təsir gücünü saxlayıb və bu gün də saxlamaqdadır. XX əsrdə də elə hadisələr baş vermiş və bu günümüzə gəlib çıxmışdır ki, onlardan bəziləri bəşəriyyətin təkamülünə səbəb olmuş, tarixin gedişatını dəyişdirmişdir. Belə hadisələrdən biri də bütövlükdə türk dünyasının böyük Zəfəri hesab edilən Türkiyənin istiqlaliyyət müharibəsidir. XX yüzilliyin görkəmli hərbi və siyasi xadimlərindən olan Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türk Milli Hərəkatının qələbəsi ilə nəticələnən bu savaş Osmanlı imperiyasının süqutuna, Lozanna müqaviləsinin imzalanmasına və nəhayət, Türkiyə Cümhuriyyətinin bütün dünyada müstəqil dövlət kimi qəbul edilməsinə səbəb olmuşdur. Qurtuluş savaşı, həmçinin bütün dünyada hüquqları istismar olunan dövlətlərə nümunə olmaqla, bəşəriyyətin formalaşmasında böyük rol oynamışdır. Osmanlı imperiyasının xarabalıqları üzərində müasir Türkiyə Respublikasını quran Mustafa Kamal Atatürk öncə Çanaqqala, daha sonra isə Qurtuluş savaşında göstərdiyi şücaəti, ağlı və cəsarəti ilə yüz milyonlarla insanın dərin ehtiramını qazanmış, bütün dünyaya türkün gücünü göstərərək, adını dünya tarixinə əbədi həkk etdirmişdir.

30 Avqust Zəfəri Türkiyənin və qəhrəman Türk Ordusunun tarixində Milli Qurtuluş Savaşının dönüş nöqtəsi hesab olunur. 1919-cu ildə Böyük Öndər Mustafa Kamal Atatürkün rəhbərliyi ilə başlanan mücadilə məhz 1922-ci ilin avqustunda özünün ən parlaq zirvəsinə yüksəlmişdi. Elə bir zirvəyə ki, bütün dünyanı heyrətə salmışdı. Bu Zəfər türk millətinin XX yüzillikdə dünya hərb tarixində yazdığı ən böyük qəhrəmanlıq səhifəsidir. Bu səhifələri vərəqlədikcə qəhrəman türk millətinin vətənpərvərliyi, yurduna və torpağına olan bağlılığı, sevgisi açıq-aydın görünür.

Lakin Zəfərə aparan yol o qədər də hamar olmayıb.

Birinci Dünya müharibəsində Osmanlı Türkiyəsi də bütün qüvvələrini səfərbər edərək müharibəyə qoşuldu. Bu qanlı müharibə Türkiyəni zəif saldı. Antanta dövlətləri Osmanlını bu savaşda tam məğlubiyyətə uğratdı. 1918-ci il oktyabrın 30-da Antanta dövlətləri ilə Türkiyə arasında "Mudros" təslimçi barışıq sazişi imzalandı. Bu anlaşmaya əsasən, Türkiyə parçalanırdı. Bununla da işğalçı ölkələr istədiyi şəkildə böyük türk torpaqlarında hökmranlıq edə bilərdi. Ölkənin şərqində Ermənistan dövləti yaratmaq da bu plana daxil idi. Bu planları həyata keçirmək üçün Yunanıstan istilasından bəhrələnirdilər. 1919-cu il mayın 19-da Türkiyənin Milli Qurtuluş Savaşı başladı.

Mustafa Kamal Paşa Osmanlı ordusunun ən istedadlı döyüş generallarından biri idi. Onun rəhbərliyi altında birləşən müqavimət qüvvələri 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinə toplanırlar. Mustafa Kamal Paşa məclisin sədri seçilir. Bundan sonra parlament Milli Qurtuluş Savaşının başlanmasına qərar verir. Bu ağır və çətin günlərdə ümumi səfərbərlik elan olunur. Qadın, gənc, uşaq, yaşlı demədən hər kəs könüllü olaraq ordu sıralarına yazılır, Vətəninin, torpağının xilasına tələsirdi. Amma içəridən bu hərəkata mane olan düşmənlərin də sayı az deyildi. Bələləri xəyanətdən və yunanların tərəfinə keçməkdən çəkinmirdilər. Bütün bunlar da Atatürkün planlarına mane olurdu. Buna baxmayaraq həmin günlərdə Mustafa Kamal Paşa üzünü xalqa tutaraq bəyan etdi. "Efendiler! Dahilde ve hariçteki düşmanlarımız ister çok, ister az olsun, faaliyetlerinin genişliyi ne olursa-olsun, kesin başarı, son başarı meşru bir amaç izleyenler olacaktır".

1921-ci ildə Sakarya müharibəsi zamanı "Xətti-müdafiə yoxdur, səthi-müdafiə vardır". O "Səth bütün Vətəndir", - deyir böyük sərkərdə Atatürk və hərb tarixinə yeni bir məfhum gətirir. Mustafa Kamal Paşa 1922-ci il avqustun 6-da orduya məxfi olaraq, döyüşmək üçün hazırlanma tapşırığı verir. Özü isə Akşehirə gələrək komandanları bir araya toplayır. Həmin toplantıda müharibənin başlanacağı günü avqustun 26-na təyin edir. 26 avqust 1922-ci il tarixdə sabah erkəndən, saat 5:30-da topçuların atəşi ilə Kocatəpədən Meydan Savaşı başlayır. Qəhrəman Türk Ordusu güneydən, quzeydən hərəkət edərək qısa zamanda irəliləyir, yunanların müdafiə xətti yarılır. 26-27 avqust gecəsi yunanların silah-sursatı ələ keçirilir. Qısa müddət ərzində Afyon işğaldan azad olunur. Dumlupınara doğru geri çəkilən düşmən və bütün yunan ordusu tamamilə məğlub edilir. Savaşın sonlarına az qalmış yunan Baş Komandanı Trikopis əsir alınır. Bu arada Kutahya da düşməndən təmizlənir. Savaşı Baş Komandan Mustafa Kamal Paşa idarə etdiyi üçün bu savaş "Meydan savaşı" adını alır. Minlərlə türk əsgəri, gənci, qadını, qocası şəhid olur bu savaşda. Amma bir qarış torpaq belə düşmənə güzəştə gedilmir.




Türk Ordusu döyüşlərdə misilsiz şücaətlər göstərərək, avqustun 30-da düşməni tam məğlubiyyətə uğradır. Bundan sonra Böyük Öndər Atatürk döyüşdən qələbə ilə çıxan hərbi birliklərə "Ordular, hədəfimiz Aralıq dənizidir, irəli!" əmrini verir. Türk Ordusu bu əmri də qəhrəmanlıqla yerinə yetirir. Beləliklə, Ulu Türkiyənin Qurtuluş müharibəsi 1922-ci il avqustun 30-da türk xalqının tam qələbəsi ilə başa çatır. 30 avqust Türkiyə tarixində əlamətdar günə çevrilir.

1923-cü il oktyabrın 23-də Ankara Türkiyə Cümhuriyyətinin paytaxtı elan olunur. Oktyabrın 29-da isə Böyük Millət Məclisində Türkiyə Cümhuriyyətinin rəsmən elan edilməsi haqqında qərar imzalanır.

Dünya tarixindən bəllidir ki, Lozanna sülh konfransında uzun sürən müzakirələrdən sonra Türkiyə Cümhuriyyətinin mövcud sərhədləri böyük dövlətlər tərəfindən tanınır. 1934-cü ildə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamal Paşaya rəsmi olaraq "Atatürk" soyadını verir.

Türkiyənin böyük qurbanlar və dağıntılar bahasına siyasi müstəqilliyini əldə etməsi onun çoxəsrlik tarixində dönüş nöqtəsi oldu. Türk xalqının müstəqillik uğrunda apardığı azadlıq mübarizəsi və imperialist dövlətlər üzərindəki tarixi qələbəsi ilə milli-dünyəvi müstəqil türk dövləti təşəkkül tapdı. Bu hadisə Şərq xalqlarının milli-azadlıq hərəkatına da güclü təkan oldu. 1922-ci ilin yayında Atatürk demişdi: "Türkiyənin bugünkü mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir".

Onu da qeyd edək ki, Milli Qurtuluş Savaşının qələbə ilə nəticələnməsində "Türk Ordusunun böyük hərbi hücumu" adı ilə tarixə düşmüş hərbi əməliyyatın böyük rolu olmuşdur. Bu əməliyyatdan əvvəl bütün hücum planları dəqiqliklə və məxfiliklə hazırlanmışdı. Çətin maddi şəraitin hakim olduğu bir zamanda türk xalqının topladığı vəsaitlər hesabına döyüş üçün silah-sursat alınmışdı.

O ağır illərdə Azərbaycan maddi və mənəvi yardımını qardaş Türkiyədən əsirgəməmişdi. O dövrün tədqiqatçıları yazırlar ki, Mustafa Kamal Paşa 1921-ci il martın 17-də, yəni, 2-ci İnönü savaşından öncə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub yazaraq, dəstəyinə böyük ehtiyac duyulduğunu bildirmişdi. Nəriman Nərimanov dərhal büdcədə olan 500 kiloqram qızılı Ankaraya və çoxlu sayda silah-sursatı da Anadoluya göndərir.

Bütün bunlar qardaşın qardaşa köməyi, vəfa borcu idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun bu barədə 1921-ci il martın 23-də Mustafa Kamal Atatürkə yazdığı məktubunda izahı daha gözəl əks olunur: "Paşam, türk millətinin bir ənənəsi vardı: qardaş qardaşa borc verməz. Qardaş qardaşın əlindən tutar, biz qardaş xalqlarıq. Hər zaman və hər şəraitdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışırıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın başqa bir qardaşı üçün etmək istədiyindən başqa bir şey deyil".

Çətin zamanlarda bir-birinə dayaq olan bir millət iki dövlət arasında qardaşlıq münasibətləri bu gün də davam edir, sabah da davam edəcək. Dar gündə qardaşın qardaşa vəfa borcunu yerinə yetirən Türkiyə 44 günlük Vətən savaşında da Azərbaycanın haqq mübarizəsini dəstəklədi, onun yanında oldu, xalqımızdan mənəvi köməyini əsirgəmədi.

**Qeyd: Məqalənin hazırlanmasında tarixi mənbələrdən istifadə olunub.**

**Hazırladı:**
**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Bakıda Azərbaycan və Qazaxıstanın hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib



Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında mövcud hərbi əməkdaşlıq çərçivəsində Bakıda hər iki ölkənin hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hüquq xidmətinin təşkili, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qazanılan təcrübəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb.

Hər iki ölkənin hərbi qanunvericiliyinin beynəlxalq hüquq və prinsipləri çərçivəsində uyğunlaşdırılması, eləcə də bir sıra digər məsələlərə dair müzakirələr aparılıb.

## Cahit Bağçı: Müttəfiqlik münasibətlərimizi genişləndirmək üçün səylərimizi qərarlılıqla davam etdirəcəyik

*Qardaş Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhadətə yüksələn şəhidlərimiz "İki dövlət, bir millət" şüarının əsasını təşkil edərək, Türkiyə-Azərbaycan qardaşlığının möhkəmləndirilməsində, şübhəsiz ki, ən böyük pay sahibidirlər.*




AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı avqustun 30-da qardaş ölkənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə "Türk şəhidliyi"ni ziyarəti zamanı söyləyib.

O bildirib ki, onların qəhrəmanlıqları illər sonra 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan qurtaran Azərbaycan əsgərlərinə ilham və güc verdi. Cahit Bağçı deyib: "Şəhid düşdüyünüz bu torpaqlarda millətin qəlbində əbədi yaşayacaqsınız. Sizdən miras qalan bir inancla müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərimizi bundan sonra daha da genişləndirmək üçün səylərimizi qərarlılıqla davam etdirəcəyik".

## Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının məlumatı

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb. Hazırda Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

## Azərbaycan və Serbiya nümayəndələri arasında hərbi təbabət üzrə ekspert görüşü keçirilib



Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında imzalanmış 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovnik-leytenantı Anar İsmayılov ölkəmizdə səfərdə olan Serbiya Respublikası Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi tibb xidməti general-mayoru Radivoje Anđelkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, Müdafiə Nazirliyinin Tibb İdarəsində keçirilən görüşdə ölkələrimiz arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Qonaqlara Azərbaycan Ordusunda tibb xidmətinin təşkili, eləcə də hərbi tibbi təchizatla bağlı brifinq təqdim olunub.



Görüşdən sonra serbiyalı nümayəndə heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı və Hərbi Tibb Fakültəsini ziyarət edib, burada yaradılan şərait ilə yaxından tanış olub.

## HHQ-nin bölmələri ilə hava desant və praktiki paraşüt tullanışları üzrə məşqlər keçirilir



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) bölmələri ilə hava desant və praktiki paraşüt tullanışları üzrə məşqlər keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, məşqlər zamanı paraşütdesant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, eləcə də uçuş heyəti tərəfindən praktiki paraşüt hazırlığı üzrə müxtəlif tapşırıqlar icra olunur.

Həmçinin təyin olunmuş nöqtəyə havadan yüklərin atılması üzrə fəaliyyətlər də yerinə yetirilir.

Əsas diqqətin hərbi qulluqçuların paraşüt tullanışları vərdişlərinin təkmilləşdirilməsi, eləcə də onların döyüş və xüsusi hazırlıq səviyyəsinin daha da artırılmasına yönəldildiyi məşqlərdə şəxsi heyət qarşıya qoyulmuş tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirirlər.

## Hərbi hissədə görüş keçirilib





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, "N" hərbi hissəsində hərbi qulluqçu, qadın hərbi qulluqçu və mülki işçilərlə görüş keçirilib.*

Görüşdə Azərbaycan Ordusunda hərbi qulluqçuların maarifləndirilməsi və milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə maarifləndirici söhbətlər aparılıb. Bundan başqa, dünyanın inkişaf etmiş ölkələrinin ordularında insan hüquqları və gender bərabərliyi sahəsində həyata keçirilən fəaliyyətlər barədə məlumatlar verilib. Qeyd olunub ki, Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində və digər struktur bölmələrində xidmət edən qadın hərbi qulluqçuların və mülki işçi qadınların əməyi Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirilir. Sonda hərbi qulluqçuların və mülki işçilərin fikirləri dinlənilib, maraq doğuran suallar cavablandırılıb.

**"Azərbaycan Ordusu"**

# Türkiyənin Zəfər bayramı münasibətilə Şəhidlər xiyabanı və "Türk şəhidliyi" abidəsi ziyarət olunub





Avqustun 30-da Türkiyədə Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd olunur.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Türkiyənin Azərbaycandakı səfirliyinin əməkdaşları, Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşeliyi, türkiyəli iş adamları avqustun 30-da Şəhidlər xiyabanına gələrək, 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə canından keçmiş türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə əklil qoyublar.

Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin ifasında Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Əvvəlcə Zəfər bayramının tarixi barədə məlumat verilib. Bildirilib ki, Türkiyə xalqı və Türkiyə Silahlı Qüvvələri qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 102 il bundan əvvəl, 1922-ci il avqustun 30-da tarixi Zəfər qazanaraq, bu tarixi yaddaşlara azadlıq günü kimi həkk edib.

Sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bu böyük qələbənin türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsi olduğunu vurğulayıb. Deyib ki, qardaş Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhadətə yüksələn şəhidlər "Bir millət, iki dövlət" şüarının əsasını təşkil edərək, Türkiyə-Azərbaycan qardaşlığının möhkəmləndirilməsində, şübhəsiz, ən böyük pay sahibidirlər. Səfir bildirib ki, onların qəhrəmanlıqları illər sonra 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan qurtaran Azərbaycan əsgərlərinə ilham və güc verdi. Cahit Bağçı əlavə edib: "Şəhid düşdüyünüz bu torpaqlarda millətin qəlbində əbədi yaşayacaqsınız. Sizdən miras qalan bir inancla müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərimizi bundan sonra daha da genişləndirmək üçün səylərimizi qərarlılıqla davam etdirəcəyik".



Şəhidliyin xatirə dəftərini imzalayan Türkiyə səfiri bildirib ki, xalq bu qələbəni əzmkarlıq və dəyanətlə qazanıb.

Sonra Azərbaycanın azadlığı uğrunda canlarını fəda etmiş türk əsgərlərinin adları və soyadları həkk olunmuş Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzülüb.

Mərasim iştirakçıları, həmçinin Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, şəhidlərin məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

*Milli Qəhrəmanlarımız*

# "Mənim kameram mənim dünyaya səsimdir"

29 avqust öz cəsarəti ilə peşəsinə sədaqəti ilə xalqımızın tarixində silinməz iz qoymuş bir insanın həyat və qəhrəmanlığını xatırladan bir tarix, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin doğum günüdür. Bu tarix, bir növ, haqq-ədalət və müstəqilliyimiz uğrunda qorxmadan mübarizə aparanların xatirəsi və qürur rəmzidir.

Çingiz Mustafayev istedadlı jurnalist və cəsur hərbi müxbir kimi Azərbaycan tarixinə əvəzsiz töhfələr verib. O, Xocalı qətliamı kimi faciəli hadisələrlə bağlı həqiqətləri üzə çıxardı, öz hekayəsini danışa bilməyənlərin səsinə çevrildi. Qorxmazlığı və fədakarlığı ilə dünyaya müharibənin əsl üzünü, dinc əhalinin faciəsini göstərdi. Çingiz Mustafayev kimi qəhrəmanların xatirəsini yaşatmaq bizim borcumuzdur. Ölkəmizin suverenliyini və müstəqilliyini



qoruyub saxlamaq üçün şəhidlərimizin xatirəsini yeni nəsillərə ötürməklə onların şücaətini daim uca tutmalıyıq.

Çingiz Mustafayev 1960-cı il avqustun 29-da hərbçi ailəsində anadan olub. Atası onu hərbçi görmək istədiyindən, Çingizi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yollamışdı. Daha sonra Azərbaycan Tibb Universitetinin tibb fakültəsinə daxil olsa da, zaman keçdikcə onun çağırışının jurnalistika sahəsində olduğunu anladı.

Qarabağ münaqişəsi başlayanda Çingiz Mustafayev fəal vətəndaş mövqeyi tutaraq özünü cəbhə xəttində baş verən hadisələri işıqlandırmağa həsr etmək qərarına gəldi. O, Qarabağ müharibəsinin işıqlandırılmasında böyük rol oynayıb, şəxsən cəbhə xəttində çalışan azsaylı jurnalistlərdən biri olub. Onun reportajları doğruluğu, emosional zənginliyi və yüksək peşəkarlığı ilə seçilirdi. Çingiz Mustafayev real hərbi əməliyyatların və faciələrin nəticələrini əks etdirən unikal sənədli filmi ilə tanınıb. Onun lentə aldığı kadrlar təkcə Azərbaycan miqyasında fəaliyyət göstərməklə kifayətlənmədi. Bu kadrlar dünyaya müharibənin dəhşətini göstərən ən mühüm sənədli dəlil oldu. Bu materiallar beynəlxalq ictimaiyyət üçün əvəzolunmaz məlumat mənbəyinə çevrildi və regiondakı ağır vəziyyətə diqqət çəkdi.

Çingiz Mustafayev 1992-ci il iyunun 15-də çəkiliş zamanı aldığı mərmi qəlpəsindən həlak olub.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli müvafiq Fərmanı ilə "Qarabağın dağlıq hissəsində baş verən hadisələrin respublika və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə, xidməti borclarını yerinə yetirərkən igidlik və şücaət göstərdiklərinə görə" Mustafayev Çingiz Fuad oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

"Mənim kameram mənim dünyaya səsimdir və ondan istifadə etməliyəm ki, dünya burada nə baş verdiyini bilsin". Bu sözlər həqiqəti tamaşaçıya çatdırmağı özünə missiya hesab edən bir jurnalist kimi Çingiz Mustafayevin həyat, yaşam fəlsəfəsini əks etdirir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri Ankarada görüşlər keçirirlər

Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət 30 nəfərlik qrup "YAŞAT" Fondu ilə "Türkiyə və Azərbaycan Sahibkar və Sənayeçiləri" İctimai Birliyinin (TÜİB) birgə həyata keçirdiyi "Qardaş ailə" proqramı çərçivəsində Ankaraya gedib.

"YAŞAT" Fondunun sədri, Qarabağ müharibəsi veteranı Elvin Hüseynov AZƏRTAC-a bildirib ki, sentyabrın 2-dək davam edəcək səfərin proqramı çox zəngindir. O əlavə edib: "Avqustun 29-da Türkiyənin milli müdafiə naziri Yaşar Güler ilə görüşdük, Türkiyə Prezidentinin Administrasiyasında, həmçinin qardaş ölkənin Gənclər və İdman Nazirliyində olduq. Eyni zamanda, proqram iştirakçıları hər il avqustun 30-da Türkiyədə qeyd olunan Zəfər Gününə həsr olunmuş tədbirlərdə iştirak etmək imkanı əldə edəcəklər".



Elvin Hüseynovun sözlərinə görə, səfər proqramına Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün mavzoleyinə və ev-muzeyinə ziyarətlər də daxildir.

Bundan əlavə, şəhid ailələri paytaxtın Cebeçi rayonunda şəhid türk əsgərlərinin məzarlığını ziyarət edəcəklər. Hacı Bayram Vəli məscidində Azərbaycan və Türkiyə qəhrəmanlarının xatirəsinə dualar oxunacaq.

Görüşlərin iştirakçıları - Qarabağ müharibəsində həlak olan qəhrəmanların ata-anaları AZƏRTAC-ın müxbiri ilə söhbət zamanı şəhid ailələrinə və döyüşlərdə sağlamlıqlarını itirənlərə göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə və şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildiriblər.

Şəhidlərin yaxınları övladlarının uzun illər işğal altında qalan Azərbaycan torpaqlarının azad edilməsi uğrunda canlarını fəda etməsindən qürur hissi keçirdiklərini bildiriblər.

Qəhrəmanların valideynləri Azərbaycan xalqının ədalətli mübarizəsinə verdiyi siyasi və mənəvi dəstəyə görə qardaş Türkiyəyə təşəkkür ediblər.

Qarabağ müharibəsi şəhidi Rəşad Quliyevin anası Mətanət Quliyeva bildirib: "Azərbaycan övladlarının qəhrəmanlığı tarixi ədalətin bərpasına imkan verdi. Adlarını tarixə qızıl hərflərlə yazan şəhidlərimizlə fəxr edirik".

Qarabağ müharibəsi qəhrəmanı Rövşən Nurzadənin atası Əli Nurzadə Azərbaycan Ordusunun zabiti olan oğlunun Şuşanın azad edilməsi uğrunda döyüşlərdə şəhid olduğunu bildirib. O deyib: "Şuşa əməliyyatından əvvəl oğlum yaralanmışdı, ona müalicə üçün qalmağı təklif etmişdilər, amma Rövşən bundan imtina edərək döyüşə yollandı. Oğlum əsl qəhrəman idi! O, həmçinin Türkiyənin Azərbaycan Silahlı Qüvvələrinin quruculuğuna verdiyi dəstəyi yüksək qiymətləndirirdi".

*Yeni nəşrlər*

# "Azərbaycan hərb tarixi (ən qədim dövrlərdən XX əsrə qədər)" kitabı çapdan çıxıb

"Azərbaycan hərb tarixi (ən qədim dövrlərdən XX əsrə qədər)" adlı monoqrafiya işıq üzü görüb.

AZƏRTAC xəbər verir ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulan 880 səhifəlik elmi əsər Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunda hazırlanıb. Monoqrafiyanın müəllifləri Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyev, Heydər Əliyev Mərkəzinin Tədbirlərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədov və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Nərminə Əmirbəyovadır.

Kitabda qədim dövrdən XX əsrin əvvəllərinə qədər Azərbaycan ərazisində baş vermiş əsas hərbi-siyasi hadisələr və müharibələr təhlil edilib, həmçinin hərb tarixi təfəkkürün yaranması və təkamülü kompleks şəkildə öyrənilib. Həmçinin Azərbaycanda hərb işinin yaranması və inkişafı məsələləri işıqlandırılıb.




Geniş mənbə və ədəbiyyat əsasında hazırlanan monoqrafiyada Azərbaycanda hərb işinin yaranma tarixi və hərb sənətinin inkişaf xüsusiyyətləri, hərbi sistem və döyüş əməliyyatları taktikası, istehkam və müdafiə qurğularının əhəmiyyəti, müxtəlif növ silahların istehsalı, onların hərbi əməliyyatlarda istifadə üsulları və döyüş taktikasına təsiri məsələləri əsərdə mühüm yer tutub.

Müəlliflər tərəfindən təqdim edilən bu monoqrafiyada xronoloji ardıcıllıqla dövrün hərbi-siyasi tarixi əks olunub. Kitaba çoxlu sayda tarixi xarakterli illüstrativ materiallar - dövlətlərin, yürüşlərin xəritələri, döyüş əməliyyatlarının, hərbi təşkilatların yürüş və döyüş düzülüşləri sxemləri, tarixi silahların fotoşəkilləri, batal miniatürləri, o cümlədən torevtika və daşişləmə sənəti nümunələri daxil edilib.

Beləliklə, ən qədim dövrlərdən XX əsrə qədər Azərbaycanın hərb tarixinin öyrənilməsi və müvafiq ümumiləşdirilməsinin aktuallığı, problemin Azərbaycan tarixşünaslığında konkret-tarixi və konseptual baxımdan araşdırılmaması təqdim edilən tədqiqatın mövzu və məqsədlərini şərtləndirib. Kitab Azərbaycan ali, humanitar və xüsusi təyinatlı tədris müəssisələrinin müəllimləri, tələbə və kursantları, geniş oxucu auditoriyası üçün nəzərdə tutulub, o cümlədən gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində istifadə oluna bilər.

# Xəbərlər: hadisələr, faktlar



**Media: Britaniya ordusunda maaşların artırılması üçün hərbi təlimlər azaldılır**

Böyük Britaniya ordusunda maaşların artırılmasını təmin etmək üçün hərbi təlimlər azaldılır.

Bu barədə "Daily Mail" nəşri yazıb.

Məlumata görə, ölkə hökuməti hərbi rəhbərlərə 400 milyon funt-sterlinqə qənaət etməyi tapşırıb ki, bu vəsaiti hərbi qulluqçuların maaşlarının artırılmasına sərf edilsin.

Eyni zamanda, Britaniyanın müdafiə naziri Con Healey bildirib ki, pullar mövcud hərbi büdcədən ayrılmalıdır.



**Şimali Koreya yenilənmiş MLRS-in sınaq atəşini keçirib**

Şimali Koreya lideri Kim Çen In yenilənmiş 240 mm-lik çoxşaxəli raket sistemlərinin (MLRS) sınaq atəşi mərasimində iştirak edib.

Bu barədə Koreya Mərkəzi Xəbər Agentliyi məlumat yayıb.

"Sınaq atəşi yenilənmiş MLRS-in bütün parametrlərdə, o cümlədən rəhbərlik sistemi, idarəolunma qabiliyyəti və dağıdıcı gücdə üstünlüyünü bir daha təsdiqlədi", - agentliyin açıqlamasında deyilir.

Kim Çen In yenilənmiş MLRS üçün istehsal planına və onların qəbulu cədvəlinə riayət etməyin vacibliyini vurğulayıb.

Şimali Koreya son vaxtlar aktiv şəkildə yeni silahları, o cümlədən MLRS-i inkişaf etdirir. Keçən il Koreya Xalq Ordusu 600 mm-lik MLRS sistemləri aldı. Pxenyanın iddiasına görə, bu sistemlərdən taktiki nüvə silahlarının buraxılması üçün istifadə edilə bilər.



**Çexiyada İkinci Dünya müharibəsindən qalma bomba aşkarlanıb**

Çexiyanın şərqindəki ən böyük və əhalinin sayına görə respublikanın Praqadan sonra ikinci ən böyük şəhəri olan Brnonun mərkəzində tikinti işləri zamanı İkinci Dünya müharibəsindən qalma hava bombası aşkar edilib. Şəhər polisi yaxınlıqda yerləşən iki binanı boşaldıb və küçəni bağlayıb.

Bu barədə yerli mətbuat xəbər verir.

Sahəyə istehkamçılar çağırılıb. Qısa müddət ərzində təhlükəli tapıntı zərərsizləşdirilərək poliqona aparılıb.



**Ukrayna Müdafiə Nazirliyi F-16 təyyarəsinin qəzaya uğradığını təsdiqləyib**

Ukrayna Silahlı Qüvvələri avqustun 26-da Rusiyanın hava hücumunu dəf etmək üçün F-16 qırıcılarından istifadə edib. Növbəti hədəfə yaxınlaşma zamanı təyyarələrdən biri ilə əlaqə kəsilib.

Bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Qərargahı məlumat yayıb.

Məlumata görə, hava döyüşü zamanı F-16 təyyarələri öz yüksək effektivliyini nümayiş etdirib. Lakin növbəti hədəfə yaxınlaşma zamanı təyyarələrdən biri ilə əlaqə kəsilib. Sonradan məlum olub ki, təyyarə qəzaya uğrayıb və pilot həlak olub.

"Qəzanın səbəblərini müəyyən etmək üçün Müdafiə Nazirliyinin xüsusi komissiyası hadisə yerində işləyir", - deyə məlumatda bildirilir.



**Cənubi Koreya və ABŞ xüsusi təyinatlıların manevrlərini keçirib**

Koreya Respublikası və ABŞ Seulun yaxınlığında yerləşən ixtisaslaşdırılmış təlim mərkəzində xüsusi təyinatlıların birgə manevrlərini keçirib.

Avqustun 24-dən 29-dək davam edən təlimlərdə Cənubi Koreya ordusunun xüsusi əməliyyat komandanlığı, Hərbi Hava Qüvvələrinin döyüş nəzarət qrupu və ABŞ 2-ci ordu aviasiya briqadasının nümayəndələri iştirak edib. Hərbi heyətin daşınması üçün UH-60 və CH-47 helikopterlərindən də istifadə olunub.

Manevrlərdə iştirak edənlər ərazini ələ keçirmək və saxlamaq, obyektə basqın və düşməni məhv etmək hərəkətlərini məşq ediblər. Agentlik qeyd edir ki, təlim quruda kəşfiyyat imkanlarını və ümumi döyüş hazırlığını artırmaq məqsədi daşıyıb.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## "Paris-2024": parataekvondoçumuz bürünc medal qazanıb



Azərbaycan parataekvondoçusu Sabir Zeynalov "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanıb.

K44 kateqoriyası üzrə 58 kiloqram çəki dərəcəsində çıxış edən idmançı üçüncü yer uğrunda görüşdə tailandlı Thanva Kaenxamı sınağa çəkib. Rəqibinə 12:3 hesabı ilə qalib gələn S.Zeynalov fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Bununla da Azərbaycan Paris Paralimpiadasında ilk medalını əldə edib.

Qeyd edək ki, yarışa sentyabrın 8-də yekun vurulacaq.

## "Paris-2024" Yay Paralimpiya Oyunlarının açılış mərasimi keçirilib



"Paris-2024" Yay Paralimpiya Oyunlarının rəsmi açılış mərasimi keçirilib.

Yelisey Çölləri prospektində start götürən tədbirə Konkord meydanında yekun vurulub.

Tədbirin gedişində paralimpiyaçıların paradı olub. Azərbaycan bayrağını parataekvondoçu İmaməddin Xəlilov və paraatlet Lamiyə Vəliyeva dalğalandırıblar. Açılış mərasimini 65 min tamaşaçı izləyib. 35 min tamaşaçı üçün ödənişli oturacaq yerləri quraşdırılıb. 30 min tamaşaçı mərasimi ödənişsiz izləyib.

Azərbaycan sentyabrın 8-dək davam edəcək Paris Paralimpiadasında 7 növdə 18 idmançı ilə təmsil olunur.

## Konfrans Liqası: "Zirə" "Omoniya"ya minimal hesabla qalib gəlib



Konfrans Liqasının pley-off mərhələsinin cavab oyunu çərçivəsində üz-üzə gələn "Zirə" və Kiprin "Omoniya" komandaları arasında görüş keçirilib.

"Liv Bona Dea Arena"da oynanılan qarşılaşma təmsilçimizin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

İlk matçda rəqib 6:0 hesabı ilə qalib gəldiyi üçün növbəti mərhələyə vəsiqə qazanıb. "Zirə" isə avrokuboklarla vidalaşıb.

## "Qarabağ" həndbol klubu Özbəkistan millisinə qalib gəlib



Bakıda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş həndbol üzrə beynəlxalq turnirdə növbəti oyun keçirilib.

"AHF Arena"da təşkil olunan yarışda "Qarabağ" klubu Özbəkistan millisini sınağa çəkib. Görüş Ağdam təmsilçisinin 28:27 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, qadınlardan ibarət 6 komandanın iştirak etdiyi turnirə sentyabrın 1-də yekun vurulacaq.

## Azərbaycan idmançısı titul döyüşündə qazaxıstanlı rəqibinə qalib gəlib



Azərbaycan MMA və Qrappling Federasiyasının idmançısı Fərid Babazadə Qazaxıstanın Almata şəhərində keçirilmiş "Octagon" liqasında kəmər uğrunda mübarizə aparıb.

57 kiloqram çəki dərəcəsində çıxış edən idmançı rəqibi Askar Jaksilikovla üz-üzə gəlib. Görüşün 5-ci raundunda boğucu fənd ilə rəqibini məğlub edən F.Babazadə liqanın çempionu olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 514
Nüsxə 2000